Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684 (Cild I); 2024, № 4, maddə 362, № 5 (I kitab), maddə 500; 2025, № 1, maddə 16; Azərbaycan Respublikasının 2025-ci il 1 aprel tarixli 163-VIIQD nömrəli Qanunu) 18.5-ci maddəsinə “strukturlarında” sözündən sonra “, məktəbdənkənar təhsil müəssisələrində” sözləri əlavə edilsin.

Maddə 2. “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1012 (Cild I); 2025, № 1, maddə 18) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 8.5-ci maddənin birinci cümləsinə ikinci halda “müəssisələrində,” sözündən sonra “məktəbdənkənar təhsil müəssisələrində,” sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 11.4.5-1-ci maddə əlavə edilsin:

“11.4.5-1. məktəbəhazırlıq qruplarının fəaliyyət göstərdiyi məktəbdənkənar təhsil müəssisələri;”.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyul 2025-ci il